# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 163** **Bakı şəhəri, 15 aprel 2022-ci il**

***"Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının təmin edilməsi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 oktyabr tarixli 420 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması mexanizminin təkmilləşdirilməsi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 sentyabr tarixli 1439 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının təmin edilməsi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 oktyabr tarixli 420 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1737; 2018, № 11, maddə 2439; 2019, № 3, maddə 524; 2020, № 12 (V kitab), maddə 1580; 2021, № 5, maddə 524) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-7-ci hissələr ləğv edilsin.

2. Aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

"8. "Satınalan təşkilatlarla ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan Müqavilə"nin forması təsdiq edilsin (8 nömrəli əlavə).".

3. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiymətləri və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elan" üzrə:

3.1. adında "qiymətləri" sözü "qiyməti, növü, miqdarı" sözləri ilə əvəz edilsin;

3.2. birinci abzasa "iddiaçı (ərzaq məhsullarının istehsalçısı və ya satıcısı)" sözlərindən sonra "satınalma şərtlərinə uyğun müvafiq sənədləri və" sözləri əlavə edilsin və həmin abzasda "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" sözləri ilə əvəz edilsin;

3.3. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"İddiaçı (ərzaq məhsullarının istehsalçısı və ya satıcısı) aşağıdakı satınalma şərtlərinə cavab verməlidir:

1. qida məhsulları sahəsində fəaliyyət göstərən təsərrüfat subyekti qida təhlükəsizliyi qeydiyyatına alınmalı;

2. idxal olunan ərzaq məhsullarının istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçmədiyi halda həmin istehsalçının məhsulları qida təhlükəsizliyi sertifikatına malik olmalı;

3. yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmalı;

4. Azərbaycan Respublikasında vergilərə və digər məcburi ödənişlərə dair vaxtı keçmiş öhdəlikləri və riskli vergi ödəyicisi olmamalı;

5. qida məhsullarının istehsalı sahəsində ən azı altı ay, satışı sahəsində isə ən azı bir il fəaliyyət göstərməli.

Qeyd. İddiaçı satmaq istədiyi məhsullar üçün öz istəyi ilə elan edilən qiymətdən aşağı qiymət təklif edə bilər. Təklif olunan ərzaq məhsullarının qiymətinə qablaşdırmaya (taraya), daşınmaya, gömrük, vergi (ƏDV) və digər ödənişlərə aid olan xərclər də daxil edilməlidir. Təkliflər sentyabrın 1-dək "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalında yerləşdirilməlidir.

"Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 19 aprel.- S.2.